Gündəlik ictimai-siyasi qəzet

# XALQ QƏZETİ

№ 112 (29084) 23 may 2019-cu il, cümə axşamı

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Milli bayramınız – Respublika Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına Çin Xalq Respublikasının Hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı bildirirəm.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 28 il ərzində davamlı iqtisadi inkişaf yolu ilə irəliləyir, xalq sülh və rifah içində yaşayır, ölkənizin beynəlxalq statusu və nüfuzu daimi artır. Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verirəm.

Bu yaxınlarda İkinci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumu çərçivəsində biz Sizinlə əhəmiyyətli görüş keçirdik və bir sıra razılıqlar əldə etdik. Ölkələrimizin və xalqlarımızın rifahı naminə ikitərəfli münasibətlərin və bütün sahələrdə əməkdaşlığın daha yeni pilləyə yüksəlməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və bütün işlərinizdə uğurlar diləyirəm.

Dost Azərbaycana inkişaf və rifah, onun xalqına xoşbəxtlik arzulayıram.

**Dərin hörmətlə,**

***Si CİNPİN***
***Çin Xalq Respublikasının Sədri***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Əziz Qardaşım!

Milli bayramınız – Respublika Günü münasibətilə zati-alinizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Dost və qardaş Azərbaycanın müstəqilliyini bərpa etməsindən bu günə qədər keçən müddət ərzində bütün sahələrdə qazandığı böyük uğurlar Türkiyə üçün də qürur mənbəyidir. Uzaqgörən liderliyiniz sayəsində Azərbaycanın bu nailiyyətlərinin artaraq davam edəcəyinə inamımız qətidir.

"Bir millət, iki dövlət" şüarı ilə genişlənən strateji münasibətlərimizin daha da güclənməsi istiqamətində qətiyyətli olduğumuzu bir daha vurğulamaq istəyirəm. Qarşıdakı dövrdə də sıx əməkdaşlığımızın regionumuzda və regionumuzdan kənarda sülh, rifah və sabitliyə mühüm töhfə verəcəyinə səmimi-qəlbdən inanıram.

Fürsətdən istifadə edərək, zati-alinizə cansağlığı və xoşbəxtlik, dost və qardaş Azərbaycan xalqına əmin-amanlıq və rifah diləklərimi bir daha ifadə edirəm.

**Hörmətlə,**

***Rəcəb Tayyib ƏRDOĞAN***
***Türkiyə Respublikasının Prezidenti***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Milli bayramınız – Respublika Günü münasibətilə Sizi və dost Azərbaycanın bütün xalqını təbrik etməkdən böyük məmnunluq duyuram.

Azərbaycan Respublikası ilə dövlətlərarası münasibətlər Tacikistan Respublikasının xarici siyasi fəaliyyətində mühüm yer tutur.

Biz ölkələrimiz arasında son illərdə dinamik inkişaf edən və dərinləşən çoxşaxəli qarşılıqlı əlaqələrin indiki səviyyəsini yüksək qiymətləndiririk.

Əmin olduğumu bildirirəm ki, tərəflərin ali səviyyədə son danışıqları və görüşləri çərçivəsində əldə edilmiş razılaşmaların ardıcıl olaraq birlikdə reallaşdırılması əməkdaşlığın bütün sahələrində münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə çatdıracaq.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edib Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni zəfərlər, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və firavanlıq arzularımı bildirmək istəyirəm.

**Hörmətlə,**

***Emoməli RƏHMON***
***Tacikistan Respublikasının Prezidenti***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Milli bayramınız – Respublika Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını Qırğızıstan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Qırğızıstan qardaş Azərbaycan ilə dostluq münasibətlərini yüksək qiymətləndirir, qarşılıqlı faydalı əməkdaşlığın daha da möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə böyük əhəmiyyət verir.

Əminəm ki, Qırğızıstan–Azərbaycan münasibətləri bundan sonra da möhkəmlənəcək, ölkələrimizin və xalqlarımızın rifahının yaxşılaşmasına şərait yaradacaq.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və firavanlıq, qardaş Azərbaycan xalqına sülh və tərəqqi arzu edirəm.

**Hörmətlə,**

***Sooronbay JEENBEKOV***
***Qırğız Respublikasının Prezidenti***

# Prezident İlham Əliyev Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak edib



burada müasir tələblərə uyğun yeni istirahət parkı salınıb.

Avstriyanın məşhur memarı Yans Hoffmanın layihələndirdiyi Mərkəzi Parkın ən mühüm xüsusiyyəti Nəriman Nərimanov prospektindən Heydər Əliyev Sarayınadək olan ərazidə piyadalara yol keçmədən maneəsiz hərəkət imkanının yaradılmasıdır. Layihənin əsas məqsədi şəhərin simasını daha da gözəlləşdirmək, paytaxt sakinlərinin və turistlərin mədəni istirahətinə xidmət etməkdir.

Dövlətimizin başçısına Hüseyn Cavid parkı-Nərimanov prospekti ilə bağlantı yolu və Cavanşir yol ötürücüsünün yerində inşa olunacaq yeni eyni səviyyəli yol qovşağının tikintisi layihəsi barədə də məlumat verildi.

Mərkəzi Parkın ərazisində 2 kafe də fəaliyyət göstərəcək. Bu istirahət məkanında insanların rahat hərəkətini təmin etmək məqsədilə yeraltı və yerüstü piyada keçidləri istifadəyə verilib.

*(ardı 2-ci səhifədə)*

❐ ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 22-də Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak ediblər.***

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Prezident İlham Əliyevin birbaşa göstərişlərinə uyğun olaraq Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən keçmiş "Sovetski" adlanan ərazidə abadlıq və yenidənqurma işlərinə 2013-cü ilin noyabr ayında start verilib və işlər mərhələlərlə icra olunmaqdadır.

Dövlətimizin başçısı və birinci xanım buradan paytaxtın mənzərəsini seyr etdilər.

Ərazi orijinal layihə əsasında yüksək səviyyədə abadlaşdırılıb,



## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Qardaş ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizə Əlcəzair dövləti, hökuməti və xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram. Mən Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə bundan sonra da sülh, sabitlik, tərəqqi və firavanlıq şəraitində yaşamağı arzu edirəm.

Cari ildə bu əlamətdar günün qeyd olunması həm də ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümünə təsadüf edir. Bu münasibətlər ölkələrimiz arasında əməkdaşlığa və qarşılıqlı etimada əsaslanan ikitərəfli əlaqələrin, eləcə də hər iki ölkə üçün maraq doğuran məsələlərlə bağlı həm beynəlxalq, həm də regional forumlarda səmərəli əməkdaşlığın inkişafına təkan vermiş və xalqlarımız arasındakı tarixi münasibətlər daha da möhkəmlənmişdir.

Mən bu xoş fürsətdən istifadə edərək Əlcəzair və Azərbaycan dövlətləri arasında mövcud olan qardaşlıq və əməkdaşlıq münasibətlərini möhkəmləndirmək, eləcə də bu münasibətləri qardaş xalqlarımızın ortaq maraqları naminə ən yüksək səviyyələrə qaldırmaq istiqamətində birgə səylərimizi davam etdirməyi qətiyyətlə dəstəklədiyimi bildirirəm.

Sizə bir daha ən səmimi təbriklərimi çatdırıram.

Zati-aliləri, icazə verin Sizə ən yüksək ehtiramımı bildirim.

**Dərin hörmətlə,**

***Əbdülqadir bin SALEH***
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti vəzifəsini icra edən***

## Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin gömrük idarələri arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin gömrük idarələri arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlığa dair 2019-cu il martın 11-də Astana şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Katibliyinə bildiriş göndərsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 may 2019-cu il**



**Azərbaycanla Böyük Britaniyanın ticarət dövriyyəsi birinci rübdə 90 faizədək artıb**

▶▶3



**Azərbaycan Xalq Cümhuriyyəti – tariximizin şanlı səhifəsi**

▶▶5



**"ABŞ-ın Türkiyəyə ultimatumu qəbuledilməzdir"**

▶▶6



**Putin Makron və Merkel ilə müzakirələr aparıb**

▶▶8

# Prezident İlham Əliyev Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak edib

*(əvvəli 1-ci səhifədə)*

Bu keçidlər əsasən avtomobillərin intensiv hərəkət etdiyi Nəriman Nərimanov, Mirzəağa Əliyev və Abdulla Şaiq küçələrinin kəsişmələrində inşa olunub. Ərazidə bütün yaş qruplarından olan insanlar üçün 7 istirahət və oyun meydançası yaradılıb. Ərazidə böyüklər üçün şahmat, nərd və idman qurğuları, balacalar üçün yelləncəklər, futbol meydançası salınıb.

Görülən işlər çərçivəsində Təzəpir məscidinin qarşısındakı bağdan məscidə əlavə giriş imkanı da olacaq. Həmçinin Füzuli meydanı ətrafındakı ərazi yenidən qurulub, burada əhalinin təhlükəsiz hərəkəti üçün piyada keçidinə yeni giriş yaradılıb. Parkın ərazisində ümumilikdə 9 fəvvarə tikilib. İstirahət parkında müasir işıqlandırma sistemi və infrastrukturun bir mərkəzdən idarə olunması üçün təhlükəsizlik kameraları quraşdırılıb.

Ərazisi 20 hektar olan parkın 14 hektarında yaşıllıq salınıb. Burada 2100-dən çox 19 növ ağac və 137 mindən artıq gül və kol bitkiləri əkilib. Parkın yaşıllaşdırma işləri aparılarkən flora və iqlim mühiti təhlil edilərək əraziyə uyğun bitki və ağaclara üstünlük verilib. Mərkəzi Parkın yaşıllaşdırma konsepsiyasında ilin bütün fəsilləri nəzərə alınıb. Parkda yaşıllıqları suvarmaq üçün müasir sistemlərə uyğun olaraq 6,5 kilometrdən çox sahədə damcılama üsulu tətbiq edilib. Bundan başqa, Mərkəzi Parkın ərazisində drenaj xətlər də çəkilib. Ümumilikdə Mərkəzi Parkın inşası ilə Füzuli meydanının ətraf ərazilərində Bakının "ağciyəri" hesab olunan yeni yaşıllıq zolağı salınmaqla Prezident İlham Əliyevin "Bakı şəhərinin Yasamal rayonu ərazisində Füzuli meydanının ətrafındakı yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq işlərinin aparılması ilə bağlı bəzi tədbirlər haqqında" 2016-cı il 4 avqust tarixli, "Təzəpir məscidi kompleksinin ətraf ərazisinin abadlaşdırılması ilə əlaqədar tədbirlər haqqında" 2016-cı il 5 avqust tarixli sərəncamlarının icrası olaraq, "Təzəpir məscidi kompleksini ziyarət edənlər üçün parklama imkanlarının yaradılması işləri" layihəsinin II mərhələsi tam yekunlaşdırılıb, vətəndaşlarımızın istirahəti və dincəlməsi üçün istifadəyə verilib.









Ərazinin abadlaşdırılması zamanı burada XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakıya Şollar su kəmərinin çəkilişi ilə əlaqədar şəhərin müxtəlif məhəllələrində tikilən və yerli sakinlər arasında "Qüllə" kimi tanınan su quyuları aşkarlanaraq bərpa edilib. Həmin su quyularından bu istirahət məkanında aparılan suvarma işlərində istifadə olunur.

Parkın ərazisində Mirzəağa Əliyev küçəsi və Təzəpir məscidi arasında müasir standartlara cavab verən 347 yerlik yeraltı avtomobil dayanacağı tikilib. Dayanacaq təbii havalandırma, müasir işıqlandırma, təhlükəsizlik kameraları ilə təchiz edilib.







Son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artıb. Bu işlər paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması, paytaxtın qədim tarixi memarlıq nümunələrinin bərpası və yeni, müasir binaların tikilib istifadəyə verilməsi ilə müşayiət olunur. Bütün bunlar Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. Bunu istər paytaxt sakinləri, istərsə də şəhərimizin qonaqları dəfələrlə vurğulayırlar. Yeni park, istirahət məkanı və guşələrinin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması bu məsələdə mühüm rola malikdir. Yeni salınan bu park da Bakının simasının daha da gözəlləşməsi baxımından mühüm rol oynayır.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı müvafiq tapşırıqların verdi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli abidəsinin önündə sakinlərlə görüşüb söhbət etdilər.

Dövlətimizin başçısı və xanımı vətəndaşların problemləri ilə tanış oldular. Bildirildi ki, sakinlərin müraciət etdiyi problemlərlə bağlı məsələlər yaxın zamanda operativ şəkildə həll olunacaq.

Sonda xatirə şəkli çəkdirildi.





**AZƏRTAC**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 230** **Bakı şəhəri, 20 may 2019-cu il**

**"Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları"nın təsdiq edilməsi haqqında**

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 iyul tarixli 164 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.cabmin.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan təbii qazını Bolqarıstana çatdıracaq Yunanıstan-Bolqarıstan interkonnektorunun inşasına başlanılıb

### *Təməlqoyma mərasimində Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov da iştirak edib*




***Mayın 22-də Bolqarıstanın Kirkovo bölgəsində Azərbaycan təbii qazını bu ölkəyə nəql edəcək Yunanıstan-Bolqarıstan interkonnektorunun (Interconnector Greece-Bulgaria (IGB) təməlqoyma mərasimi keçirilib.***

Mərasimdə Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubovla yanaşı, Bolqarıstanın Baş naziri Boyko Borisov, Yunanıstanın Baş naziri Aleksis Tsipras, hər iki ölkənin enerji nazirləri, Avropa Komissiyası və Avropa İnvestisiya Bankının (EIB) yüksək səviyyəli rəsmiləri, eləcə də müxtəlif ölkələrdən 150-dən çox qonaq iştirak edib.

Baş nazirin birinci müavini Yaqub Eyyubov Azərbaycan, Bolqarıstan və Yunanıstanın təkcə enerji sektorunda deyil, digər sahələrdə də uğurlu və davamlı əməkdaşlığının vacibliyini vurğulayıb.

Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç ünvanladığı videomüraciətdə deyib: "IGB-nin həyata keçirilməsi bölgənin qaz təchizatı təhlükəsizliyini artıracaq və Avropanın enerji infrastrukturuna töhfə verəcək".

Mərasimdə bildirilib ki, Yunanıstan-Bolqarıstan İnterkonnektoru digər mühüm layihələrin – Cənub Qaz Dəhlizi, TANAP və TAP-ın birləşdirici funksiyasını daşımaqla geniş enerji strategiyası və Avropanın prioritetlərini müəyyən edir.

Yunanıstan-Bolqarıstan İnterkonnektorunun operatoru olan "ICGB AD" şirkəti boru kəmərinin inşasını həyata keçirəcək.

Xatırladaq ki, 2013-cü ilin sentyabrında "Bulgargaz EAD" "Şahdəniz-2" çərçivəsində ildə 1 milyard kubmetr qazın alınması ilə bağlı 25 illik saziş imzalayıb. Azərbaycan təbii qazı "Trans-Adriatik" (TAP) qaz boru kəməri ilə 2020-ci ildə Avropaya çatdırılacaq. Həmin il Yunanıstan-Bolqarıstan qaz şəbəkələrinin bir-biri ilə əlaqələndirilməsi planlaşdırılır. Bolqarıstan interkonnektor ilə 2020-ci ildən etibarən ildə 1 milyard kubmetr Azərbaycan qazı alacaq. Azərbaycan qazı Bolqarıstanın istehlakının dörddəbir hissəsini ödəyəcək.

IGB layihəsinin dəyəri təxminən 220 milyon avro qiymətləndirilir. Boru kəməri Şimal-Şərqi Yunanıstanın Komotini və Bolqarıstanın cənubundakı Stara Zagora bölgələrini bir-birinə birləşdirəcək. IGB qaz boru kəmərinin Komoti və Stara Zagorada çıxış nöqtəsi olacaq, Yunanıstan və Bolqarıstan milli təbii qaz sistemləri arasında birbaşa əlaqə yaradılacaq. 182 kilometrlik IGB boru kəməri Yunanıstandan Bolqarıstana ildə təxminən 3 milyard kubmetr təbii qaz nəqli qabiliyyətinə malik olacaq və gələcək bazar tələbatına əsasən bu həcmin illik 5 milyard kubmetrə çatdırılması imkanı var.

**AZƏRTAC**

# DİN-in fəaliyyətinin beynəlxalq standartlar səviyyəsində qurulması üçün ardıcıl addımlar atılır





***Daxili İşlər Nazirliyinin (DİN) "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubovun iştirakı ilə A.Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbin müəllim-komandir heyəti, növbəti tədris kursunun məzunları və xidmətə yeni qəbul olunmuş dinləyicilər ilə görüş keçirilib.***

DİN-in mətbuat xidmətindən bildiriblər ki, tədbirdə çıxış edən nazir R.Usubov Prezident İlham Əliyevin gənc kadrların hazırlanması və irəli çəkilməsi işinə hər zaman xüsusi önəm verdiyini, nitq və çıxışlarında bunun gələcəyimizi şərtləndirən mühüm amillərdən biri kimi vurğuladığını xatırladıb, tədbirin bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasətin növbəti təzahürü olduğunu vurğulayıb.

Nazir müstəqilliyin ilk illərində cərəyan edən gərgin ictimai-siyasi proseslər, ölkədə yaranmış vətəndaş qarşıdurması, Ermənistanın təcavüzü, partiya mənsubiyyətinə, şəxsi münasibətlərinə görə daxili işlər orqanlarına çoxsaylı təsadüfi, səriştəsiz insanların qəbul edilməsi, kriminogen durumun nəzarətdən çıxması barədə danışıb, xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra cəmiyyət həyatının bütün sahələrində, o cümlədən hüquq-mühafizə fəaliyyəti ilə bağlı köklü hüquqi-demokratik islahatların həyata keçirildiyini, qanunvericilik bazasının yaradıldığını, cinayətkarlıqla qətiyyətli mübarizənin əsasının qoyulduğunu, sabitliyin bərqərar edildiyini diqqətə çatdırıb. General-polkovnik R.Usubov bildirib ki, bu siyasət hazırda Azərbaycan Prezidentinin rəhbərliyi ilə uğurla davam etdirilir, Daxili İşlər Nazirliyi sistemində də fəaliyyətin beynəlxalq standartlar səviyyəsində qurulması üçün ardıcıl, məqsədyönlü addımlar atılır.

Daxili işlər naziri gənc polis əməkdaşlarını təbrik edərək çətin və şərəfli peşələrində uğurlar arzulayıb, onlara daim üzərlərində işləmələrini, müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların qanunla qorunan hüquq və mənafelərinin keşiyində möhkəm dayanmalarını, peşəkar həmkarlarının təcrübəsindən bacarıqla yararlanmalarını tövsiyə edib.

**AZƏRTAC**

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, mayın 22-də Şirvan şəhəri, Daşkəsən, Füzuli, Xızı və Yardımlı rayonlarında sakinlərlə görüşüblər.***

Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar, ilk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlətimizin başçısının da dediyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlarda imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Həmçinin görüşlərdə məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**AZƏRTAC**

# ADA Universiteti və Rusiya Elmlər Akademiyası gənc alimlərin yetişdirilməsində əməkdaşlıq etməyi planlaşdırır

***ADA Universiteti və Rusiya Elmlər Akademiyası gənc alimlərin yetişdirilməsində əməkdaşlıq etməyi planlaşdırır.***



Bu məsələ mayın 22-də xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayevin Rusiya Elmlər Akademiyasının prezidenti, akademik Aleksandr Sergeyevlə görüşündə müzakirə edilib.

ADA Universitetindən bildirilib ki, tərəflər, xüsusilə informasiya texnologiyalarının və tətbiqi elmlərin inkişafı məqsədilə mübadilə proqramlarının nəzərdən keçirəcəklər.

Görüşdə qarşılıqlı maraq doğuran sahə kimi, həmçinin Xəzər hövzəsi üzrə elmi tədqiqatların aparılması müzakirə olunub.

Akademik Aleksandr Sergeyevin başçılıq etdiyi nümayəndə heyəti ADA Universitetində olarkən tədris mərkəzi ilə də tanış olub. Qonaqlara universitetin tələbə və müəllim heyəti, burada yaradılan beynəlmiləl mühit və Rusiyanın bir neçə aparıcı universiteti daxil olmaqla, 70-ə yaxın xarici ali təhsil ocağı ilə qurulan elmi əməkdaşlıq barədə məlumat verilib.

Akademik Aleksandr Sergeyev qarşıdan gələn "Məzun günü" münasibətilə universitet rəhbərliyini təbrik edib və ADA yetirmələrinə uğurlar arzulayıb.

**AZƏRTAC**

# Azərbaycanla Böyük Britaniyanın ticarət dövriyyəsi birinci rübdə 90 faizədək artıb

### *Londonda Azərbaycan–Böyük Britaniya Hökumətlərarası Komissiyanın 3-cü iclası keçirilib*

***Londonda Azərbaycan Respublikası hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 3-cü iclası keçirilib.***



Energetika Nazirliyindən bildirilib ki, nazir Pərviz Şahbazovun və Böyük Britaniyanın ticarət siyasəti üzrə dövlət naziri Corc Hollinqberinin həmsədrliyi ilə keçirilmiş iclasda hər iki ölkənin komissiyada təmsil olunan müvafiq qurumlarının rəsmiləri iştirak ediblər.

İclasda iqtisadiyyat, ticarət, enerji, vergi və gömrük, kənd təsərrüfatı, qida təhlükəsizliyi, rabitə və yüksək texnologiyalar, nəqliyyat, kosmik, elektron hökumət və rəqəmsal dövlət xidmətləri, təhsil, səhiyyə, turizm, mədəniyyət, gənclər və idman, ekologiya, hərbi və təhlükəsizlik sahələrində mövcud əməkdaşlıq və əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə olunub.

İclasda çıxış edən Hökumətlərarası Komissiyanın həmsədri, energetika naziri Pərviz Şahbazov Azərbaycan və Böyük Britaniya arasında iqtisadi əlaqələr barədə məlumat verərək ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın olduğunu vurğulayıb. Bildirib ki, iki ölkə arasında ötən il ticarət dövriyyəsi 61,1 faiz, cari ilin 3 ayı ərzində isə 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 89,6 faiz artıb. Hazırda Azərbaycanda 437 Britaniya sərmayəli şirkət fəaliyyət göstərir və bu ölkə tərəfindən Azərbaycan iqtisadiyyatına təxminən 28 milyard ABŞ dollarınadək investisiya yatırılıb.

P.Şahbazov deyib: "Birgə Hökumətlərarası Komissiyanın budəfəki iclası bütün sahələr üzrə potensialı dəyərləndirməyə imkan yaradacaq. Yeni qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri üçün yol xəritəsi müəyyənləşdirəcək. Bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişaf siyasəti həyata keçirilir. Bu kurs əməkdaşlığımızın qeyri-neft sektorunda daha da inkişafı üçün zəmin yaradır".

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ticarət siyasəti üzrə dövlət naziri C.Hollinqberi isə ölkəsinin Azərbaycanla çoxşaxəli əlaqələrinin inkişafında maraqlı olduğunu, bu məqsədlə birgə fəaliyyətin mühüm rol oynayacağını söyləyib.

İclasda ölkələrimiz arasında əməkdaşlıqda neft-qaz sektorunun mühüm rolundan bəhs edilib. Neft-qaz sektorunda hasilat xərclərinin azaldılması, karbohidrogenlərin məhsuldarlığının artırılması, yeni texnologiyaların inkişaf etdirilməsi, eləcə də bərpaolunan enerji, enerji səmərəliliyi enerji əməkdaşlığının gələcək istiqamətləri kimi müəyyənləşdirilib. Ticarət və investisiya üçün daha yaxşı biznes mühitinin yaradılmasında əməkdaşlıq maraqları ifadə edilib. Sumqayıt Kimya və Pirallahı Sənaye Parkları, Dövlət-Özəl Tərəfdaşlığı layihələri əməkdaşlıq üçün yeni imkanlar kimi vurğulanaraq kənd təsərrüfatı, turizm və qeyri-neft sektorunun digər sahələrində də Böyük Britaniya şirkətlərinin iştirakının vacibliyi qeyd olunub.

Bildirilib ki, Birləşmiş Krallıq kənd təsərrüfatı sahəsində təcrübəsini, məhsulların istehsalında texnologiyasını paylaşa, prioritet istiqamətlər üzrə birgə layihələr həyata keçirilə bilər. Müvafiq qurumlar arasında anlaşma memorandumunun imzalanması isə prosesə töhfə verər. Turist və istirahət zonalarının yaradılması və inkişafı üzrə təcrübə mübadiləsinin aparılması, sərgi və biznes-forumlar çərçivəsində əməkdaşlığın davam etdirilməsi vacibdir. Təhsil sahəsində isə hər iki ölkənin ali məktəbləri arasında əlaqələrin genişləndirilməsi, ingilis dilinin tədrisinin təkmilləşdirilməsi, peşə təhsili və digər istiqamətlər üzrə imkanlar nəzərdən keçirilməlidir. Yüksək texnologiyalar, rəqəmsal dövlət xidmətləri, kosmik sahə, nəqliyyat, qida təhlükəsizliyi, həmçinin ekologiya sahələrində əməkdaşlıq ikitərəfli əlaqələrin inkişafı baxımından əhəmiyyətli olacaq istiqamətlərdəndir.

İclasın sonunda Azərbaycan Respublikası hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 3-cü iclasının yekunlarına dair protokol imzalanıb. Sənədi komissiyanın həmsədrləri - Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Böyük Britaniyanın Ticarət Siyasəti üzrə dövlət naziri Corc Hollinqberi imzalayıblar. Komissiyanın 4-cü iclasının 2020-ci ildə Bakıda keçirilməsi razılaşdırılıb.

**AZƏRTAC**

# Mətyu Brayzə: Şəxsi təcrübəmdən bilirəm ki, vaxtilə ailəmlə birlikdə yaşadığım Bakı çox təhlükəsiz şəhərdir

***Gələn həftə – mayın 29-da Bakı UEFA Avropa Liqasının "Arsenal" və "Çelsi" komandaları arasında keçiriləcək final oyununa evsahibliyi edəcək. Hesab edirəm ki, bu, möhtəşəmdir. Bu oyun Bakının necə gözəl şəhər, həmçinin yaşamaq üçün möhtəşəm bir məkan olduğunu bütün avropalılara və dünyaya nümayiş etdirmək baxımından çox gözəl bir imkandır. Şəxsi təcrübəmdən bilirəm ki, vaxtilə ailəmlə birlikdə yaşadığım Bakı çox təhlükəsiz şəhərdir.***



Bu fikirləri ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Mətyu Brayzə söyləyib.

"Təəssüf ki, "Arsenal" klubunun erməni əsilli oyunçusu Mxitaryan təhlükəsizlik məsələsini əsas gətirərək Bakıda keçiriləcək bu oyunda iştirak etməmək barədə qərar verib. Aydındır ki, bu, onun şəxsi seçimidir. Məncə, bu oyunda iştirak etməməsi onun futboldan qazanacağı puldan məhrum olmasına səbəb olacaq. Zənnimcə, bu, ağıllı seçim deyil. Onun Bakıda yarış zamanı futbol meydançasında özünün təhlükəsizliyi ilə bağlı narahat olması üçün heç bir səbəb görmürəm. Mən ermənilər tanıyıram ki, Azərbaycana rahat səfər ediblər. Amma bu, hər halda futbolçunun şəxsi qərarıdır. Ümid edirəm ki, bu, oyunun möhtəşəm keçməsinə, eləcə də xarici qonaqların Bakının gözəlliyindən həzz almalarına mane olmayacaq. Düşünürəm ki, həm bu oyunun, həm də Bakının gözəlliyinin nümayiş etdirilməsinin siyasətlə heç bir əlaqəsi yoxdur", – deyə M.Brayzə vurğulayıb.

**AZƏRTAC**

# Qafqaz zubrları Azərbaycan təbiətinə qaytarılır

**IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyi tərəfindən birgə həyata keçirilən "Zubrların Azərbaycana reintroduksiyası" proqramı çərçivəsində ölkəyə gətirilmiş zubrların mayın 21-də Şahdağ Milli Parkının İsmayıllı bölməsinə aid olan hissəsində onlar üçün yaradılmış xüsusi əraziyə buraxılması mərasimi keçirilib.**



Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və digər qonaqlar iştirak ediblər.

Vaxtilə ölkəmizdə nəsli kəsilmiş vəhşi öküz – Qafqaz zubru növündən olan 8 baş heyvan mayın 16-da Fransa və Belçika zooparklarından Azərbaycana gətirilib. Onlar üçün Şahdağ Milli Parkının İsmayıllı bölməsində xüsusi ərazi yaradılıb. Heyvanlar bir müddət bu ərazidə adaptasiya dövrü keçdikdən sonra Şahdağ Milli Parkına buraxılacaq. Əraziyə bu il daha 12 baş zubrun gətirilməsi də nəzərdə tutulur.

Yerli sakinlər və məktəblilər də zubrlara xüsusi maraq göstərərək tədbirə qoşulub, nəsli tükənmək təhlükəsi altında olan növlərin bərpası istiqamətində aparılan işlərlə tanış olub və öz dəstəklərini nümayiş etdiriblər. Eyni zamanda, tədbirə qatılan yerli gənc təbiətsevərlərə zubrların Azərbaycanda tarixi, onların təbiətdə rolu və mühafizəsi haqqında mühazirələr təşkil olunub.



Zubrlar vaxtilə Avrasiyada çox geniş arealda yayılsa da, ötən əsrin əvvəllərində vəhşi təbiətdə nəsli, demək olar ki, kəsilib. Qafqaz dağlarında sonuncu zubr 1927-ci ildə öldürülüb. Hazırda dünyada mövcud olan zubrların böyük əksəriyyəti zooparklarda artırılıb və bu yolla növün bərpasına yönəlmiş səylər davam etdirilir. Vəhşi öküzlər güclü, cüssəli heyvanlardır və qədim zamanlardan insanlar tərəfindən güc rəmzi kimi qəbul olunub.



IDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan nümayəndəliyi ilə birgə ölkəmizdə nadir növlər olan Qafqaz bəbiri, ceyran və zubrların populyasiyasının bərpası istiqamətində uğurlu layihələr icra edir.

Zubrların Azərbaycanda biomüxtəlifliyinin daha da zənginləşdirilməsi və meşə ekosistemlərinin inkişafında potensial rolunu nəzərə alaraq layihənin təşkilatçıları ölkəmizin şimal bölgələrində yaşayan əhalini və ümumiyyətlə respublika ictimaiyyətini Qafqaz zubrlarının təbiətimizə qaytarılması, onların mühafizəsi və qanunsuz ovlanmasının qarşısının alınması işinə dəstək olmağa çağırırlar.

***AZƏRTAC***

# Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir



**Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilati, çoxsaylı prokurorluq əməkdaşlarının fərdi üzvü olduğu və dünya prokurorlarını eyni qurumda birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP) ilə əməkdaşlıq uğurla davam etdirilir.**

Baş Prokurorluğun mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan Prokurorluğu ilə qurulmuş sıx əməkdaşlıq məsələlərinin inkişaf perspektivlərinin müzakirəsi məqsədilə IAP-ın icraçı direktoru xanım Yanne Holst baş prokuror Zakir Qaralovun dəvəti ilə ölkəmizə səfər edib.

Səfər zamanı Yanne Holst Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında assosiasiyaya fərdi üzv qəbul edilmiş prokurorluğun gənc əməkdaşları ilə görüşüb.

Tədbirdə baş prokurorun müavini – Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi, Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti Kamran Əliyev BMT-nin İqtisadi və Sosial Şurasında məşvərətçi statusa malik olan və sıralarında 100-dən çox dövləti birləşdirən Assosiasiya ilə Azərbaycan Respublikasının prokurorluq orqanları arasında səmərəli əməkdaşlığın dinamik inkişaf etdiyini bildirib, ölkəmizin qurumun fəaliyyətinə verdiyi töhfələri və göstərdiyi dəstəyi xüsusi vurğulayıb.

Assosiasiyanın yeni üzvləri ilə görüşdə çıxış edən Yanne Holst təmsil etdiyi qurumun fəaliyyət istiqamətləri və iş prinsipləri barədə məlumat verib. O, gənc əməkdaşlara xidməti fəaliyyətləri zamanı təşkilatın imkanlarından faydalanmağın yollarını izah edib, onların suallarını cavablandırıb.

Sonda Assosiasiyaya qəbul edilmiş yeni üzvlərə qurumun üzvlük vəsiqələri təqdim olunub.

***AZƏRTAC***

# İnsan alverinə qarşı mübarizədə beynəlxalq təcrübə öyrənilir

**Avropa İttifaqının və Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) İnkişaf Fondu tərəfindən birgə maliyyələşdirilən "Azərbaycanda insan alverinə qarşı mübarizə üzrə milli potensialın gücləndirilməsi" layihəsi çərçivəsində BMqT-nin ölkəmizdəki nümayəndəliyinin və regional ofisinin dəstəyi ilə Azərbaycanın 11 nəfərlik nümayəndə heyəti Litvada dördgünlük tanışlıq səfərində olub.**



Nümayəndə heyətinə Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının, Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin, Baş Prokurorluğun və Vəkillər Kollegiyasının təmsilçiləri, apellyasiya və rayon məhkəmələrinin hakimləri daxil edilib.

Ədliyyə Akademiyasından AZƏRTAC-a bildiriblər ki, səfərin məqsədi insan alverinə qarşı mübarizədə hüquqi qərarların verilməsi, insan alveri qurbanlarının müdafiəsi sahəsində beynəlxalq və Avropa standartlarının tətbiqi, qanunvericiliyin təhlili və Litvada insan alveri ilə bağlı cinayətlərin təqibi halları, bu sahədə prosedur və qaydalarla tanış olmaqdır.

Litva Respublikasının Vilnüs və Kaunas şəhərlərində olan nümayəndə heyəti Litva Kansleri Alqirdas Stonçaytis, baş prokurorun müavini Rimvyadas Valentukeviçius, sosial təhlükəsizlik və əmək nazirinin müavini Etvidas Binqales, Litva baş polis komissarı Linas Pernavas, Ali Məhkəmənin hakimləri ilə görüşlər keçirib, faydalı fikir və təcrübə mübadiləsi aparıb.

Kansler ilə görüşdə ölkəmizin insan alverinə qarşı mübarizəyə dair qanunvericiliyi və hüquqi praktikası ilə bağlı əyani təqdimatla çıxış edilib. Həmçinin bu sahədə müsbət təcrübələr, yanaşmalar və yeni tendensiyalar, insan alveri qurbanlarına yardım göstərilməsi prosedurları barədə maraqlı müzakirələr aparılıb.

Səfər çərçivəsində nümayəndə heyəti İnsan alveri qurbanlarına yardım üzrə Vilnüs Böhran Mərkəzinin, Kaunasda yerləşən Kişilərin Böhran Mərkəzi Assosiasiyasının, Kaunas şəhər bələdiyyəsi nəzdində insan alverinə qarşı çoxşaxəli mübarizəyə dair komandanın fəaliyyəti ilə yaxından tanış olub.

Eyni zamanda, Azərbaycanın Litvadakı səfirliyinə baş çəkilib. Səfir Tamerlan Qarayev səfirliyin fəaliyyəti barədə ətraflı məlumat verib, maraq doğuran məsələlər müzakirə edilib.

# Vergilər Nazirliyi və Baş Prokurorluq birgə məlumat yayıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi, korrupsiya və mənimsəmə hallarına qarşı mübarizənin aparılması ilə bağlı göstərişlərinə uyğun olaraq, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması və aşkarlanmış korrupsiya hüquqpozmalarına qarşı mübarizə çərçivəsində Vergilər Nazirliyi ilə Baş Prokurorluq tərəfindən birgə tədbirlərin görülməsi davam etdirilir.**

## *Vergilər Nazirliyinin Ərazi Vergilər idarələrinin dörd əməkdaşının vergi orqanlarında xidmətlərinə xitam verilib*

Vergilər Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Vergilər Nazirliyindən bir sıra Ərazi Vergilər idarələrinin 2015-2018-ci illəri əhatə edən dövr üzrə fəaliyyətlərinin yoxlanılması zamanı aşkarlanan qanun pozuntularına dair Baş Prokurorluğa daxil olmuş materiallar Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Aparılmış araşdırmalarla 2 saylı Ərazi Vergilər Departamentinin İqtisadi təhlil və büdcə proqnozunun icrasına nəzarət şöbəsinin böyük dövlət vergi müfəttişi Mahir Əbdürrəhimovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək Xızı və Siyəzən rayonları üzrə maliyyə şöbələrindən daxil olmuş vergi və dövlət rüsumlarından tam və ya qismən olmaqla, ümumilikdə 511 min manat azaldaraq, həmin məbləğləri ayrı-ayrı vergi ödəyicilərinin şəxsi hesab vərəqələrinə qeyd etməklə sonunculardan nağd şəkildə alıb mənimsəməsinə əsaslı şübhələr yaranıb. Faktla bağlı Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

Bundan başqa, Ağdam Rayon Vergilər Şöbəsinin direktoru Valeh Qasımovun eyni qaydada rayon maliyyə idarəsindən daxil olmuş ödəniş sənədlərini (qəbzləri) saxtalaşdıraraq faktiki olaraq ödəniş olmadığı halda ayrı-ayrı vergi ödəyicilərinin şəxsi hesab vərəqələrinə ümumilikdə 412 min manat vəsait qeyd etməklə onlardan nağd şəkildə alıb mənimsəməsinə əsaslı şübhələr olduğundan material üzrə Cinayət Məcəlləsinin 179.3.2-ci və 308.2-ci maddələri ilə cinayət işi başlanıb.

Aparılmış araşdırmalarla, həmçinin 5 saylı Ərazi Vergilər İdarəsinin operativ vergi nəzarət şöbəsinin dövlət vergi müfəttişi Eldəniz Əzizov və həmin idarənin səyyar vergi yoxlamaları şöbəsinin böyük dövlət vergi müfəttişi Elnur Mənsimovun eyni qaydada müvafiq maliyyə idarələrindən daxil olmuş ödəniş sənədlərinin (qəbzlərin) işlənilməsi zamanı 38 min manat vəsaiti faktiki ödəniş təyinatından yayındırmaqla ayrı-ayrı vergi ödəyicilərindən nağd şəkildə alınmış və büdcəyə ödənilməmiş vəsait əvəzinə onların şəxsi hesab vərəqələrinə vergi ödənişi kimi qeydiyyatını aparmaqla vergi ödəyicilərindən vergi ödənişi kimi nağd şəkildə alınmış həmin məbləği mənimsəməsinə əsaslı şübhələr olduğundan faktla bağlı Cinayət Məcəlləsinin 179.2.3-cü, 179.2.4-cü və 308.1-ci maddələri ilə cinayət işi başlanıb.

Bununla yanaşı, 13 saylı Ərazi Vergilər İdarəsinin kiçik sahibkarlıqla iş şöbəsinin vergi öhdəliklərinin icrasına nəzarət bölməsinin baş dövlət vergi müfəttişi Ziya Paşayevin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək 2017-2018-ci illərdə Qax Rayon Maliyyə İdarəsindən təhvil aldığı vergi və rüsumlarla bağlı 47 min manat dəyərində ödəniş qəbzlərini skan edərək oraya əvvəldən tanıdığı bəzi vergi ödəyicilərinin sadələşdirilmiş vergi kodu, ödəyicinin adı, VÖEN və vergi məbləği haqda yenidən qeydiyyat apararaq rəsmi sənədi saxtalaşdırmasına əsaslı şübhələr olduğundan faktla bağlı Cinayət Məcəlləsinin 308.2-ci və 313-cü maddələri ilə cinayət işi başlanıb.

Vergilər Nazirliyi üzrə əmrlərlə xidməti fəaliyyətlərinin icrası zamanı yol verdikləri qanunazidd əməllərə görə müvafiq Ərazi Vergilər idarələrinin dörd əməkdaşının vergi orqanlarında xidmətlərinə xitam verilib, dörd əməkdaş isə müvəqqəti olaraq tutduqları vəzifədən kənar ediliblər.

Hazırda cinayət işləri üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Vergi sahəsində yol verilmiş qanun pozuntularının qarşısının alınması və aşkarlanan korrupsiya hüquqpozmalarına qarşı Vergilər Nazirliyi ilə Baş Prokurorluq tərəfindən birgə ciddi tədbirlərin görülməsi bundan sonra da davam etdiriləcək.

# Azərbaycan Xalq Cümhuriyyəti – tariximizin şanlı səhifəsi



**Azərbaycan XX əsrə böyük bir xalq olaraq, özünün qüdrətli və savadlı ziyalı dəstəsi ilə qədəm qoydu. Siyasət meydanında özünü göstərə biləcək, Qərbin və Rusiyanın müxtəlif universitetlərində təhsil almış ictimai və siyasi xadimlər Azərbaycan qarşısında övladlıq və vətəndaşlıq borcunu yerinə yetirmək üçün əlverişli şərait gözləyirdilər. Belə bir əlverişli şəraitin artıq işartıları görünürdü.**

1905-ci ilin yaz və yay aylarında Bakıda başlanan milli hərəkat, Azərbaycanın digər şəhərlərinə də yayıldı. Çar idarəsinin qoyduğu məhdudiyyətlərə baxmayaraq bölgələrdə Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağayev, Fətəli xan Xoyski və digərlərinin başçılığı ilə Azərbaycan türklərinin siyasi, sosial, iqtisadi ehtiyacları ilə bağlı toplantılar keçirilir, gələcək planlar irəli sürülürdü.

Dünənə kimi uşaqları üçün ana dilində məktəb açmaq imkanı olmayan, qəzet nəşr etdirə bilməyən, seçki hüququ məhdudlaşdırılan və bir çox başqa haqları əllərindən alınan bir xalqın birdən-birə nailiyyətlər əldə etməsi çar hökuməti üçün gözlənilməz bir sürpriz oldu.

Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Adil xan Ziyadxanlı, Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Ələkbər bəy Xasməmmədov 1905-ci il inqilabının gətirdiyi azadlıq nemətlərindən Azərbaycan xalqı üçün əlindən gələn qədər daha çox pay qoparmaq istəyirdilər. Bu məqsədlə Rusiya Dövlət Dumasında təmsil olunan azərbaycanlı deputatlar imperiya məngənəsindən xilas olmaq üçün açıq çağırışlar edirdilər.

Birinci Dövlət Dumasında Azərbaycanı uğurla təmsil edən Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Məmmədtağı Əliyev, Əsədulla bəy Muradxanov çalışırdılar ki, Azərbaycan xalqının istəklərini həyata keçirə bilsinlər. Ə.Topçubaşov Azərbaycan xalqının siyasi azadlıq əldə etməsi üçün çalışdığı kimi, Rusiyada yaşayan başqa müsəlmanlarla da yaxından əlaqə saxlayırdı. O, Kazan, Krım, Türküstan, Dağıstan və Şimali Qafqaz vilayətlərində yaşayan müsəlmanların azadlığını, az da olsa, siyasi hüquqlara nail olmasını, müsəlmanların birləşərək öz azadlıqları uğrunda mübarizə aparmalarını istəyirdi və bunun üçün də yorulmadan çalışırdı.

Azərbaycan və başqa türk xalqlarının dumada irəli sürdükləri, üzərində durduqları, uğrunda mübarizə apardıqları türkdilli məktəblər, ana dilində təhsil, muxtariyyət və siyasi azadlıq məsələləri aktual idi.

1905-ci il Birinci rus inqilabı və 1917-ci il İkinci rus inqilabı arasındakı illər Azərbaycan türklərini istiqlal mübarizəsinə həvəsləndirən, xalqımızı azadlığa aparan və ən nəhayət, böyük səylər, ölümlər, qırğınlar və fədakarlıqlarla istiqlaliyyətə qovuşduran illər oldu. Bu dövrdə Əli bəy Hüseynzadə belə yazırdı: "Qafqaz türkləri türklərin ən hürriyyətpərvərləridir. Bu məmləkətdə heç bir qüvvə hürriyyət arzusunu məhv edə bilməz, heç bir cəbr və təzyiq, heç bir cəfa və əziyyət, heç bir zülm və sitəm hürriyyət odunu söndürə bilməz. Qafqaz hürriyyət aləminin tarixində mühüm rol oynayacaqdır, bu rollardan ən böyüyü Qafqaz və Azərbaycan türklərinə aiddir..."

Əli bəy Hüseynzadənin "Həyat" qəzetinin 1906-cı il 2 iyul tarixli nömrəsində söylədiyi bu fikirlər özünü çox gözlətmədi. 1914-cü ildə başlanan I Dünya müharibəsi 1917-ci ilin əvvəllərində Rusiyanı çökdürdü və 1917-ci ilin fevralında Rusiyada 300 ildən artıq hakimiyyətdə olan Romanovlar sülaləsi devrildi.

Müstəqiliyyə qovuşmaq üçün yollar arayan Ə.Hüseynzadə, Ə.Ağayev, M.Rəsulzadə, Ə.Topçubaşov, F.Xoyski, N.Yusifbəyli və başqaları Azərbaycanın gələcək siyasi xəritəsini cızdılar. Hələ 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə çar tərəfindən verilən amnistiyadan sonra Bakıya dönən M.Ə.Rəsulzadə 1911-ci ildə təsis edilmiş "Müsavat" Partiyasına daxil olaraq liderliyi tezliklə əlinə aldı. 1915-ci ildə isə "Açıq söz" adlı qəzet çıxarmağa başlayan M.Rəsulzadə bu qəzet vasitəsilə İstanbuldan gətirdiyi Ziya Göyalpın türkçülük fikirlərini yaymağa başladı.

Eyni zamanda Nəsib bəy Yusifbəyli "Açıq söz" qəzetində M.Rəsulzadə ilə həmfikir olduğunu bildirir və millətçiliyi təbliğ edirdi. Bu yolda kifayət qədər çətinliklər vardı. "Gah tatar, gah dağıstanlı, gah müsəlman, gah türk, gah da müxtəlif adlar altında milli-dini zülmə məruz qalan Azərbaycan xalqı istiqlala qovuşmaq üçün fürsəti əldən vermək istəmirdi. Azərbaycan xalqını öz tarixi torpaqlarından didərgin salmaq üçün S.Şaumyanın başçılığı ilə Bakı Soveti qurumu yaradılmışdı. Azərbaycan xalqı ilə heç bir əlaqəsi olmayan bu qurum daşnak qüvvələri ilə birləşərək 1918-ci ilin martında təkcə Bakı şəhərində 11 mindən artıq türk-müsəlmanın həyatına son qoydu... Bu qırğınlar işıqlı səhərə gedən yolun zülmət gecəsi idi..."

1917-ci ildə çar Rusiyasının dağılması Cənubi Qafqazda müstəqil dövlətlərin yaradılmasına şərait yaratdı. Əvvəlcə Cənubi Qafqazdan Rusiya Dövlət Dumasına seçilmiş deputatlardan ibarət Cənubi Qafqazın idarəsi üzrə xüsusi komitə, elə həmin ilin noyabrında isə Cənubi Qafqaz Komissarlığı yaradıldı. Lakin Rusiyada 1917-ci ilin oktyabrında bolşeviklərin çevriliş yolu ilə hakimiyyəti ələ alması Cənubi Qafqazdan Rusiyanın Müəssislər Məclisinə seçilmiş deputatların yolunu bağladı və nəticədə 1918-ci ilin fevralın 14-də həmin nümayəndələr Tiflisdə toplaşaraq Cənubi Qafqazın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini yaratdılar.

Cənubi Qafqaz Seymində və hökumətində fəaliyyət göstərən Azərbaycan, Gürcüstan və erməni nümayəndələri arasında ümumi bir platforma olmadığından Seym tezliklə dağıldı və 1918-ci ilin mayın 26-da Gürcüstan istiqlaliyyətini elan etdi.

Cənubi Qafqaz Seymi dağıldıqdan bir gün sonra – mayın 27-də Azərbaycanın istiqlaliyyətini elan etmək və Azərbaycan hökumətini yaratmaq üçün Seymin bütün müsəlman nümayəndələri Tiflisdə toplandı. İclasa 4-cü Rusiya Dövlət Dumasının və Cənubi Qafqaz Seyminin keçmiş üzvü Məmməd Yusif Cəfərov sədrlik edirdi. İclasda keçmiş Cənubi Qafqaz Seyminə daxil olan "Müsavat" Partiyası və partiyasızların demokratik qrupunun müsəlman sosialistlər bloku, "İttihad" və müsəlman sosial-demokratların, menşevik "Hümmət" partiyalarının nümayəndələri iştirak edirdilər. İclas Batumdan qayıtmış Cənubi Qafqaz Mərkəzi Müsəlman Şurasının üzvü N.Yusifbəylinin məruzəsi ilə açıldı. Natiq bildirdi ki, Türkiyə Cənubi Qafqazın müstəqilliyinin saxlanılmasında qəti qərarlıdır və bu gənc dövlətin möhkəmlənməsi, güclənməsi və çiçəklənməsi üçün əlindən gələni edəcəyinə hazır olduğunu bildirir...

N.Yusifbəylinin məruzəsini dinləyən Müsəlman Fraksiyası Seymin özünü buraxması məsələsini geniş və hərtərəfli müzakirə etdi və Şərqi Zaqafqaziyanın idarəsini öz üzərinə götürmək məqsədilə özlərini Zaqafqaziya Müsəlmanlarının Müvəqqəti Milli Şurası elan etmək barədə yekdil səslə qərar qəbul etdi.

Fövqəladə iclas Azərbaycan Milli Şurasının Rəyasət Heyətini seçdi. Rəyasət heyətinə "Müsavat" Partiyasından və bitərəflərin demokratik qrupundan – M.Rəsulzadə, M.Hacınski, N.Yusifbəyli, X.Xasməmmədov, M.Cəfərov, Müsəlman Sosialistləri Blokundan – X.Məlik-Aslanov və C.Hacınski, Sosial-demokrat "Hümmət" partiyasından isə – doktor X.Sultanov seçildilər. Gizli səsvermə nəticəsində həmin vaxt Batumda Türkiyə nümayəndə heyəti ilə danışıqlar aparan M.Rəsulzadə Milli Şuranın sədri, H.Ağayev və M.Seyidov sədrin müavinləri, M.Mahmudov və R.Vəkilov katib, F.Xoyski isə yekdil səslə icraedici orqanın – hökumətin sədri seçildilər.

1918-ci il mayın 28-də Tiflisdə keçmiş Qafqaz canişinin sarayında sədr müavini H.Ağayevin sədrliyi və M.Mahmudovun katibliyi ilə Müsəlman Milli Şurasının ilk iclası keçirildi. Gərgin keçən müzakirələrdən sonra Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul edildi (Sultan Məcid Qənizadə və Cəfər bəy Axundov səsvermədə bitərəf qaldılar). Həmin dövrdə "Əqdnamə" və ya "Misaqi Milli" adlanan bu sənədi H.Ağayev, F.Xoyski, N.Yusifbəyli, C.Hacınski, Ş.Rüstəmbəyov, N.Nərimanov, C.Məlik-Yeqanov, M.Mahmudov imzaladılar.

İstiqlal bəyannaməsi bütün türk-müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə-üsulunun – parlamentli respublikanın yaradılacağından xəbər verirdi. Bəyannamədə deyilirdi:

1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət hüququna malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir;
2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir;
3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir;
4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir;
5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır;
6. Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.

Göründüyü kimi, Azərbaycan Milli Şurası çox çətin bir şəraitdə iki mühüm tarixi qərara imza atdı. Birincisi, Azərbaycanın istiqlaliyyətini elan etdi, ikincisi, Fətəli xan Xoyski başda olmaqla Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətini formalaşdırdı.

İstiqlaliyyətinin tanınması münasibətilə Azərbaycan mətbuatında xeyli yazılar getdi. Azərbaycan Cümhuriyyəti xalqların beynəlxalq ailəsinə daxil oldu. Azərbaycanın müstəqilliyinin tanınması ona olan marağı da artırdı. Bir çox ölkələrin Bakıda konsulluqları açıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin 23 ay dalğalanan səkkiz güşəli ulduzlu, üçrəngli bayrağını 1920-ci il 28 aprel işğalı ilə milli ruhumuza yad olan sovetlər rejimi əydilər, ancaq endirə bilmədilər. 70 il ərzində Cümhuriyyətə çox damğalar vuruldu! Bu illər ərzində Cümhuriyyətlə bağlı çox tarixlər yazıldı. Cümhuriyyətin yaradılmasında haqqı olanları günahkar çıxarmaq üçün onlara müxtəlif damğalar vuruldu, əksinqilabçı kimi qələmə verənlər də oldu. Lakin sovet imperiyasının cəza-repressiya maşını Azərbaycan xalqının qan yaddaşından 23 aylıq Cümhuriyyət sevdasını silib ata bilmədi. Bu illər ərzində xalq ümidini itirmədi. Bilirdi ki, ona həyat verənlər bu xalqın gözünün işığı olublar!

Cümhuriyyətin 73-cü ildönümündə Azərbaycan yenidən müstəqil oldu, imperiya zəncirini qıraraq özünü Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi elan etdi.

1991-ci ilin 18 oktyabrında Azərbaycan növbəti dəfə öz müstəqilliyinə qovuşdu və qəbul edilmiş Konstitusiya Aktına görə, özünü Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və hüququ varisi elan etdi. XX əsrin 90-cı illərinin respublikamız üçün ağır sınaq illəri olmasına baxmayaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 30 yanvar 1998-ci ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" sərəncam imzaladı. Sərəncamda bu tarixi günün Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi daxil olduğu qeyd olunur. Sərəncamda, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin respublikada geniş qeyd edilməsi, yubiley tədbirlərinin həyata keçirilməsi məqsədilə Dövlət Komissiyasının yaradılması, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələlərin həll edilməsi qərara alınırdı.

Ötən il 100 illik yubileyini qeyd etdiyimiz Cümhuriyyətimiz cənab Prezident tərəfindən də öz layiqli qiymətini aldı. 2017-cı il 16 may tarixli sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin təntənəli şəkildə keçirilməsi üçün sərəncam verildi.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin ən yüksək səviyyədə qeyd olunmasını qədim yunan əsatirindən alınmış fikirlərlə yekunlaşdırmaq istərdim. Qədim yunan əsatirinə görə, ilk dəfə yer üzünə alovu göydən gətirən Prometey olmuşdur. Bu cəsarətinə görə, yunanların baş allahı Zevs onu edam etdirmiş və Qafqaz dağlarında çarmıxa çəkdirmiş, qartallar isə onun ciyərini parça-parça edib qoparmışdılar. Prometey edam edilsə də, onun dünya üzünə gətirdiyi alov sönməyib indiyədək qalmış, bəşəriyyətə əvəzsiz xidmət etmişdir... Bəli, bax bu gün Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan xalqının tarixində, qəlbində yeri və rolu Prometeyin gətirdiyi o alova bənzəyir. O alov ki, müstəqillik ideyalarıdır, hürriyyətdir, azadlıqdır, sönməyibdir, yaşayır, yaşadılır, layiqli şəkildə davam etdirilir və gələcək nəsillərə çatdırılır.

***Ziyad ƏMRAHOV,***
***AMEA Elm Tarixi İnstitunun tarixşünaslıq və mənbəşünaslıq şöbəsinin müdiri, tarix elmləri üzrə fəlsəfə doktoru***

# "Prezident – xalq" vəhdətinin növbəti nümunəsi



**Prezident İlham Əliyevin Bakı şəhəri və ətraf qəsəbələrin inkişafına xüsusi diqqət və qayğısı yenidənqurma və abadlıq işlərinə geniş imkan yaradıb. Bununla əlaqədar son illər bir sıra tədbirlər həyata keçirilmiş, dövlət proqramları təsdiqlənmişdir. Mən 27 saylı Sabunçu ikinci seçki dairəsindən Milli Məclisə seçilmiş deputat kimi, seçicilərimlə keçirdiyim görüşlər zamanı da əhalinin abadlıq və yenidənqurma işlərindən, həmçinin onları narahat edən məsələlərin qısa müddət ərzində aradan qaldırılmasından, əmin-amanlıqdan razılıq etmələrinin şahidi olmuşam.**

Sakinləri narahat edən əsas məsələlər qaz, su və elektrik enerjisinin daimi verilməsi, yol infrastrukturunun yaxşılaşdırılması, məşğulluğun artırılmasıdır. Artıq bu məsələlər tədricən öz həllini tapır. Son illər paytaxt rayonlarında tikinti-quruculuq, abadlıq işləri geniş vüsət almışdır. İndiyədək yol-nəqliyyat sisteminin əsaslı təmiri və yenidən qurulması, əhalinin kommunal problemlərinin həlli, infrastrukturun yeniləşdirilməsi, şəhər nəqliyyatının daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Bu gün də yenidənqurma işləri uğurla davam etdirilir.

Bakıətrafı qəsəbə və kəndlərin sosial-iqtisadi və mədəni siması xeyli dəyişmiş, qaza, suya, elektrik enerjisinə olan tələbatın ödənilməsi, küçə və məhəllədaxili işıqlandırma sistemlərinin qurulması, ictimai nəqliyyatın fasiləsiz işləməsi, sosial təyinatlı obyektlərin – məktəblərin, uşaq bağçalarının, xəstəxanaların, mədəniyyət evlərinin tikintisi və bərpası, müasir avadanlıqla təchiz edilməsi ilə bağlı xeyli iş görülmüşdür. Bu günlərdə Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışı və dövlət başçımızın həmin tədbirdə iştirakı, sakinlərlə görüşü Bakıətrafı qəsəbələrin abadlaşdırılması istiqamətində daha bir uğurlu addım oldu.

Son illər Sabunçu rayonu ərazisində yeni müəssisələrin, parkların, istirahət mərkəzlərinin, sosialyönümlü obyektlərin açılışında möhtərəm Prezidentimiz şəxsən iştirak edib. Bu, Bakıərtafı qəsəbə və kəndlərin inkişafının Prezidentin diqqət mərkəzində saxlanılmasından xəbər verir. Bakı sərnişin – Sabunçu dəmir yolu xəttinin açılışı bu qayğının növbəti təzahürüdür.

Payataxtın mərkəzi ilə Bakıətrafı qəsəbə və kəndləri birləşdirən, əhali üçün çox əlverişli olan bu dəmir yolu xətti müstəqilliyimizin bərpasından sonra ilk illərdə ölkədə baş alıb gedən özbaşınalıq, idarəetmədəki naşılıq, habelə baxımsızlıq ucbatından yararsız hala düşmüşdü. Dövlət başçımızın qarşıya qoyduğu vəzifələrdən biri də həmin dəmir yolunun bərpası idi. Artıq uzun illərin intizarından sonra bu məsələ də öz həllini tapdı.

Görülən işlərlə yerində tanış olan Prezident İlham Əliyev bir daha bildirdi ki, hər bir qəsəbənin problemləri diqqət mərkəzindədir: "Çalışırıq ki, bütün qəsəbələrdə quruculuq-abadlıq işləri aparılsın, vətəndaşlar üçün yeni imkanlar yaradılsın".

Dövlət başçımızın tədbirdə iştirakı zamanı əsas diqqət çəkən məqamlardan biri də yaxınlıqdakı mağazaya girməsi, alıcılar və satıcılarla səmimi söhbət etməsi oldu. Cənab Prezident içəri daxil olan kimi satıcı və alıcılarla salamlaşıb hal-əhvallarını, işlərinin necə getdiyini soruşdu. Sonra qəsəbə sakinləri ilə təəssüratlarını bölüşüb, onların problemləri ilə maraqlandı. Bu fakt "Prezident – xalq" vəhdətinin növbəti nümunəsidir. Son illər dəfələrlə şahidi olmuşuq ki, dövlətimizin başçısı regionlara səfərləri zamanı əhali ilə bir yerdə olur, onların təkliflərini, şikayətlərini dinləyir, hətta sakinlərlə birlikdə şəkil çəkdirir. Bu, dövlət başçısının səmimiyyətinin, humanistliyinin, qayğıkeşliyinin və insanlara verdiyi yüksək dəyərin bariz nümunəsidir.

***Dilarə CƏBRAYILOVA,***
***Milli Məclisin deputatı***

# Sosial islahatlar dinamik iqtisadi inkişafın nəticəsidir



**Sosial müdafiə yönümlü islahatlar indiki dövrdə hər bir cəmiyyətin inkişaf səviyyəsinə birbaşa təsir edən mühüm amillərdən hesab olunur. Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən sosial islahatlar da bu baxımdan mühüm önəm daşıyır. Dövlət başçısı tərəfindən minimum əməkhaqqı və minimum pensiya məbləğlərinə edilən dəyişikliklər, habelə fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı atılan qətiyyətli addımlar sosial-iqtisadi əhəmiyyətə malik növbəti humanist təşəbbüs olmaqla, əhalinin rifahının yüksəldilməsinə, sosial müdafiəsinin gücləndirilməsinə, ümumən ölkəmizdə layiqli həyat səviyyəsinin təmin edilməsinə güclü təkan verib.**

Ümumiyyətlə, cari ilin ötən aylarında insanların həyat səviyyəsinin yüksəldilməsi istiqamətində ciddi islahatlar gerçəkləşdirilib. Əlbəttə, bu, iqtisadi potensialın daha da gücləndirilməsi nəticəsində mümkün olub. Belə düşünülən və məqsədyönlü siyasət isə ölkəmizin inkişafına, xalqımızın əmin-amanlıq şəraitində yaşamasına gətirib çıxarıb.

Burada bir məqamı xüsusilə diqqətə çatdırmaq istərdim. Belə ki, bir il bundan əvvəl xalqımız növbəti dəfə cənab İlham Əliyevi yenidən Prezident seçdi. Bu, vətəndaşların ulu öndər Heydər Əliyevin siyasətinə inamının ifadəsi olmaqla yanaşı, Prezident İlham Əliyevin Azərbaycanın inkişafı yolunda əldə etdiyi uğurlarına verilən qiymət idi.

Ötən ilin aprel ayında keçirilən seçkilərdən ötən müddətdə həyatımızın bütün sahələrini əhatə edən əhəmiyyətli dəyişikliklər baş verməsi də bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, bu dəyişikliklər arasında diqqəti xüsusi cəlb edən vətəndaşlarımızın rifah halının yaxşılaşdırılması ilə əlaqədar genişmiqyaslı strategiyanın reallaşdırılmasıdır. Prezident seçkilərindən sonra cənab İlham Əliyevin imzaladığı ilk fərman da məhz vətəndaşlarımızın sosial rifah halının yaxşılaşdırılması ilə əlaqədar olub. Məsələn, Prezidentin imzaladığı sərəncamlarla Azərbaycanda minimum əməkhaqqı 38 faiz artırılaraq, 180 manata qaldırılıb. Bununla da təxminən 600 mindən çox insanın aldığı əməkhaqlarında ciddi artım baş verib. Eyni zamanda, minimum pensiyaların 116 manatdan 160 manata çatdırılması nəticəsində yenə də təxminən 600 mindən çox insanın pensiyasında əhəmiyyətli artım baş verib ki, bu da onların rifahının yaxşılaşmasına müsbət təsir göstərib.

Onu da xatırlatmaq yerinə düşər ki, müstəqillik dövründə ulu öndər Heydər Əliyev tərəfindən başlanılan və ötən 16 il ərzində uğurla davam etdirilən sosial islahatların mühüm göstəricilərindən olan minimum əməkhaqqı indeksi daim artmaqdadır ki, bu da sosial müdafiənin hər zaman diqqət mərkəzində olduğunu göstərir.

Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamına əsasən sosial müavinət məbləğlərində də artımlar həyata keçirilib. Qeyd edək ki, pensiya məbləğlərindən fərqli olaraq, sosial müavinət məbləğləri konkret olaraq müəyyənləşdirilir. Belə ki, əvvəllər əlillər üçün 82 manat, müharibə əlilləri üçün 101 manat, Çernobıl AES-də qəza nəticələrini aradan qaldırmaqda iştirak edib əlilliyi olan şəxslərin 94 manat olan sosial müavinət məbləği artırılaraq 160 manata çatdırılıb. Beləliklə, 1-ci qrup əlilliyə görə sosial müavinət 150 manat, minimum pensiya isə 160 manat olub.

Gücləndirilən sosial təminat sisteminin əhatə etdiyi əhali qruplarından biri də uşaqlardır. Ölkəmizdə 10-dan çox sosial müavinət növü məhz uşaqların sosial müdafiəsinə yönəldilib. Hazırda sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar, şəhid ailələrinin və müharibə əlillərinin, beşdən çox uşağı olan qadınların, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları, valideyn himayəsindən məhrum olmuş uşaqlar aylıq sosial müavinətlə təmin edilirlər. Həmçinin ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin 1 yaşadək uşaqlarına aylıq sosial müavinət, yeni doğulan uşaqlara görə isə birdəfəlik müavinət ödənilir. Çernobıl AES qəzası nəticəsində I və II qrup əlil olmuş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına, habelə Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının dispanser qeydiyyatında olan uşaqlarına da müavinət verilir.

Uşaqlar üçün müəyyənləşdirilən müavinətlərin mütəmadi olaraq artırılması daim diqqət mərkəzində saxlanılır. Dövlət başçısının 2019-cu il 25 fevral tarixli sərəncamı bu sahədə növbəti və əhəmiyyətli addımın atılmasına imkan verib. Yeni sərəncama əsasən, bu il aprelin 1-dən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar üçün müavinətin məbləği 82 manatdan 150 manata çatdırılmaqla həmin uşaqlara qulluq edənlər üçün də Prezidentin aylıq təqaüdü 50 manat məbləğində təsis edilib.

Azərbaycanda aparılan islahatlar, həyata keçirilən mühüm tədbirlər ölkə vətəndaşları ilə yanaşı, beynəlxalq ictimaiyyət tərəfindən də böyük maraqla izlənilir və müxtəlif beyin mərkəzləri tərəfindən yüksək qiymətləndirilir. Düşünülmüş addımların nəticəsidir ki, Azərbaycan "Doing Business 2019" hesabatında dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilib. Həmçinin Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda Azərbaycan 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox dövlətlərini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib.

***Mirağa ƏHMƏDOV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) biznes və menecment fakültəsinin dekanı, dosent***

# Nazir diplomatik missiyaların rəhbərlərini qəbul edib

**Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə təmsil olunan Meksika, Kolumbiya, Perunun və Çilinin diplomatik missiyalarının rəhbərlərini qəbul edib.**



Xarici İşlər Nazirliyindən verilən məlumata görə, görüşdə nazir Azərbaycanın Sakit okean Alyansının (SOA) 10 may tarixində Meksikanın Mexiko şəhərində keçirilən Nazirlər Şurasının görüşündə müşahidəçi statusu almasını təqdirəlayiq hal kimi dəyərləndirib. O, adları çəkilən 4 üzv ölkəni, habelə qurumun 4 tərəfdaşı olan Avstraliya, Kanada, Yeni Zelandiya və Sinqapuru, eləcə də 57 müşahidəçi ölkəni birləşdirən SOA-nın regional ticari əlaqələrin inkişafında mühum platforma olduğunu bildirib.

Nazir vurğulayıb ki, Azərbaycan xarici siyasətində Latın Amerikası ölkələri ilə əməkdaşlığa xüsusi önəm verir və bu xüsusda, sözügedən regionda mövcud olan təşkilatlar və iqtisadi birliklərlə fəal əməkdaşlıq edir. Bu kontekstdə SOA-nın müxtəlif iqtisadi əməkdaşlıq formatları və ayrı-ayrı ölkələrlə inkişaf edən tərəfdaşlığını nəzərə alaraq, Sakit okean məkanının Avropa məkanı ilə birləşdirilməsində vacib rol oynayan Azərbaycanın SOA ölkələri üçün də potensial imkanlar aça biləcəyi qeyd olunub.

Hazırda SOA-da sədrlik edən Perunun səfiri Mariya Milaqros Kastanyon Seoane Azərbaycanın bu quruma müşahidəçi qismində qosulmasını rəsmi olaraq təsdiq edən sənədi təqdim edib.

Sonra SOA ölkələri diplomatik missiyalarının rəhbərləri Azərbaycanla əlaqələrinin dinamik inkişafından bəhs edib və bu prosesdə səfirliklərin böyük rol oynadıqlarını söyləyiblər. Onlar, ölkəmizin apardığı qlobal və regional tərəqqiyə xidmət edən fəal xarici siyasəti yüksək dəyərləndirərək, təmsil etdikləri dövlətlərin Azərbaycanla əməkdaşlığın həm ikitərəfli, həm də çoxtərəfli formatlarda daha da inkişaf edəcəyinə dair əmin olduqlarını bildiriblər.

Tərəflər iqtisadi əməkdaşlıqla yanaşı, müxtəlif sahələrdə perspektiv imkanlar ətrafında fikir mübadiləsi aparıblar. Qarşılıqlı əməkdaşlığın inkişafında özəl sektorun rolu, biznes forumlarının keçirilməsinin əhəmiyyəti nəzərdən keçirilib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparılıb.

*"Xalq qəzeti"*

# DSMF-də müşavirə

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sosial islahatlar proqramına uyğun olaraq, cari ilin əvvəlindən ölkəmizdə ilk proaktiv xidmət kimi pensiyaların avtomatlaşdırılmış qaydada təyinatına başlanılıb. Sosial təminat sisteminin digər sahələri üzrə də avtomatlaşdırılmış təyinat sistemlərinin qurulması işləri davam edir və bu işlər nəticəsində proaktiv xidmətlərin əhatə dairəsi xeyli genişləndiriləcək.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumatda bildirilir ki, Dövlət Sosial Müdafiə Fondunun direktoru Himalay Məmişov bildirib ki, müşavirədə Dövlət Sosial Müdafiə Fondunun 2019-cu ilin birinci rübünə dair fəaliyyəti, xüsusilə dövlət başçısının əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə imzaladığı fərman və sərəncamların icrası sahəsində görülmüş işlər müzakirə olunub. H.Məmişov cari il martın 1-dən pensiyanın minimum məbləğinin 40 faiz artırılaraq 160 manata çatdırılmasının 233 min pensiyaçının pensiyasında əhəmiyyətli artıma imkan verdiyini deyib. O, həmçinin 15 aprel 2019-cu il tarixli sərəncam və fərmanlarla sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırılmasının 600 minə yaxın vətəndaşın rifahına ciddi dəstək olduğunu vurğulayıb. O, şəhid ailələrinin, əlilliyi olan şəxslərin, sağlamlıq imkanları məhdud uşaqların və b. həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi sahəsində həyata keçirilən tədbirləri də qeyd edib.

İclasda müvafiq artımların edilməsi üçün aparılmış işlər, DSMF-nin fəaliyyət sahələrində əhaliyə xidmətlərin keyfiyyətinin yüksəldilməsi, vətəndaş məmnunluğuna nail olunması, icra intizamına əməl olunması üçün görülən işlər müzakirə edilib. Fondun cari ildə qarşısında duran vəzifələrdən bəhs olunub, bu vəzifələrin icrasının təmin edilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

*"Xalq qəzeti"*



# "ABŞ-ın Türkiyəyə ultimatumu qəbuledilməzdir"

**Ankaranın bəyanatlarından görünür ki, S-400-lə bağlı məsələ artıq həll olunub. Bu barədə jurnalistlərə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib. Məlumatı "Anadolu" agentliyi verib.**

Peskov Türkiyənin Rusiyadan S-400 zenit-raket kompleksləri alması ilə bağlı ABŞ-ın yanaşmasını qəbuledilməz hesab edir. "Biz bu yanaşmaya çox mənfi baxırıq, bu cür ultimatumları qəbuledilməz hesab edirik. Biz Türkiyə rəhbərliyinin S-400 məsələsinin bitdiyi barədəki çoxsaylı bəyanatlarına əsaslanırıq".

Qeyd edək ki, ABŞ Rusiyadan alacağı S-400-dən imtina üçün Türkiyəyə 2 həftə vaxt verdiyi barədə ultimatum irəli sürüb. Bu barədə CNBC telekanalı məlumat yayıb. Lakin Türkiyə tərəfi yenə də qərarından dönməyəcəyini bildirib.

Dünən Türkiyənin müdafiə naziri Hulusi Akar bu məsələnin bitdiyini bəyan edib. Onun sözlərinə görə, artıq Türkiyə mütəxəssisləri S-400 sistemlərinin iş prosesini öyrənmək üçün Rusiyaya göndərilib.

Akar deyib ki, Türkiyə hava və raket təhdidi altındadır: "82 milyon insanımızı və ölkəmizi qorumaq üçün hava hücumundan müdafiə sistemi qurmağa ehtiyacımız var. Bunun üçün tədbirlər görmək bizim vəzifəmizdir. S-400 sadəcə müdafiə sistemidir. Ölkəmizi hava hücumu və raketlərdən qoruyacaq. Başqa potensialı yoxdur. Bundan heç kim narahat olmamalıdır".

Nazir əlavə edib ki, Türkiyə F-35 proqramındakı öhdəliklərini də lazımınca yerinə yetirir: "Artıq 4 qırıcı almışıq. Hazırda ABŞ-da 4 pilotumuz, 47 əsgərimiz var. Noyabr ayında iki qırıcı da Türkiyəyə göndəriləcək. Yəni biz Türkiyə olaraq üzərimizə düşən bütün məsuliyyəti bilirik ".

Müdafiə naziri ABŞ-ın ölkəsinə qarşı tətbiq edəcəyi sanksiyalara da toxunaraq deyib ki, Türkiyə bu halda hansı tədbirləri görəcəyi ilə bağlı hazırlıqlara başlayıb.

**Paşa ƏMİRCANOV,**
**"Xalq qəzeti"**

**Fransa Türkiyədə hava hücumundan müdafiə sistemləri yerləşdirməyi təklif edib. Belə bir təklifin olması barədə Türkiyənin müdafiə naziri Hulusi Akar bildirib.**



# Türkiyə Fransanın təkliflərini dəyərləndirir

Nazirin sözlərinə görə, Fransa Türkiyədə müvəqqəti olaraq SAMP-T sistemini yerləşdirməyi təklif edib: "Bununla bağlı danışıqlar aparılır. Fransanın bu istiqamətdə təkliflərini dəyərləndiririk."

*"Xalq qəzeti"*

# Dəmir yolu xətləri uzadılacaq



**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri Cavid Qurbanov bildirib ki, Bakı-Sabunçu dəmir yolu xəttinin uzunluğu bir istiqamət üzrə 13,5 kilometrdir.**

Cavid Qurbanov qeyd edib ki, Bakı sərnişin – Sabunçu dəmir yolu xətti üzərindəki Bakıxanov, Koroğlu, Keşlə və Nərimanov dayanacaqları tamamilə yenidən qurulub. Artıq Sabunçu dəmir yolu vağzalı kompleksi sərnişinlərə xidmət göstərməyə tam hazırdır.

ASC sədri deyib: "Hazırda dəmir yolu daha sürətli nəqliyyat vasitəsi hesab olunur. Gələcəkdə dəmir yolu xətlərinin Əhmədli, Zirə, Pirallahı, həmçinin Heydər Əliyev adına Beynəlxalq Hava Limanına qədər uzadılmasını düşünürük və bu yollar davamlı olaraq tikiləcək.

Qeyd edək ki, mayın 21-də Prezident İlham Əliyev Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışında iştirak edib, yeni inşa edilən Bakı sərnişin – Sabunçu dəmir yolu xətti üzrə görülən işlərlə tanış olub.

*"Xalq qəzeti"*

# Azərbaycanda 1125 nəfər əcnəbi qaçqın var

**BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) qeydlərinə əsasən Azərbaycanda 1125 nəfər qaçqın var.**



BMT QAK-ın Azərbaycandakı Nümayəndəliyinin xarici əlaqələr üzrə müşaviri Elsevər Ağayev bildirib ki, qaçqın statuslu şəxslərin yarıdan çoxu – 636 nəfəri Əfqanıstan vətəndaşıdır. Qaçqınların ikinci böyük əksəriyyətini 388 nəfərlə Rusiya Federasiyasından olan çeçenlər təşkil edir.

Azərbaycandakı qaçqınların 44-ü İran, 15-i Pakistan, 15-i Suriya, 1-i Türkiyə, 26-sı isə digər ölkələrin vətəndaşlarıdır.

*"Xalq qəzeti"*

# Müdafiə naziri düşmənin təxribat cəhdlərinin qarşısının alınması barədə tapşırıq verib



**Genişmiqyaslı əməliyyat-taktiki təlimləri çərçivəsində cəbhəboyu zonada olan müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti müxtəlif istiqamətlərdə yerləşən ön xətt bölmələrində olublar.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumatda bildirilir ki, nazir bölmələrin döyüşə hazırlıq səviyyəsini yoxlayıb, Ermənistan silahlı qüvvələrinin üzbəüz yerləşən mövqelərini müşahidə edib və əldə olunan məlumatlara əsasən düşmənin törədə biləcəyi təxribat cəhdlərinin qarşısının bütün atəş vasitələrinin tətbiqi ilə dərhal alınması barədə müvafiq tapşırıqlar verib.

*"Xalq qəzeti"*

# Məhsulun ilk partiyası Çexiyaya ixrac olunacaq




**"Az-Granata" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal üzrə direktor müavini Vüqar Mikayılov bildirib ki, Azərbaycanda ilk dəfə olaraq alkoqolsuz şərab istehsalına başlanıb.**

Vüqar Mikayılovun sözlərinə görə, şirkət bir aydır ki, alkoqolsuz şərab istehsal edir: "Bu şərab alkoqollu şərabın vakuum aparatından keçirilməsi nəticəsində alınır. Şərab "Rubai 0%" adı ilə istehsal edilərək satışa buraxılıb. Şərab, əsasən, ixrac üçün nəzərdə tutulub. Artıq bu məhsul Çexiyaya ixrac edilir. Yaxın günlərdə "Az-granata" həmin məhsulu Ukraynaya da ixrac edəcək. Şərabın bir neçə ölkəyə ixrac edilməsi planlaşdırılır".

V.Mikayılov qeyd edib ki, alkoqolsuz şərab xərçəng xəstəliyinin yaranma riskini azaldır, artıq çəkidən azad edir: "Alkoqolsuz şərabın tərkibindəki resveratrol, poliflavanoidlər və bir sıra kompleks birləşmələr güclü antioksidant xüsusiyyətlərə malikdir. Bu da insanlarda xərçəng kimi ağır xəstəliyin yaranma riskini önəmli dərəcədə azaldır, bədəndə radioaktiv şüalanmanın qarşısını alır. Həmçinin bu şərabdan hər gün 150 millilitr istifadə etməklə artıq çəkidən azad olmaq mümkündür".

**"Xalq qəzeti"**

# Nigeriyada quldurların hücumu zamanı 26-dan çox insan həlak olub

❒ ***Nigeriyanın şimalındakı Katsin əyalətində, quldurların hücumu zamanı 26-dan çox insan həlak olub.***

"Channels TV" telekanalı bildirir ki, Faskare yerli hökumətinin ərazisində 11 nəfər, Dan Musanın ərazisində isə 5 nəfər həlak olub.

Quldurlar, həmçinin Bastari rayonunda yerləşən Yar Qamdji kəndindəki kənd təsərrüfatı işçilərinə hücum ediblər, nəticədə 18 nəfər həlak olub, 10 nəfər itkin düşüb.

Qeyd edilir ki, axtarış dəstəsi tərəfindən Faskari ərazisindəki meşədə daha üç meyit və quldurların tərk etdiyi düşərgə aşkar olunub. Hazırda əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

*"Xalq qəzeti"*



## Azərbaycan Milli Elmlər Akademiyasının İşlər İdarəsi

### *mallarıın satın alınması məqsədilə*

### AÇIQ TENDER ELAN EDİR

Tender 1 lot üzrə keçiriləcəkdir.

Lot-1. Digər maşın və avadanlıq maddəsi üzrə malların satın alınması.

Maraqlananlar 100 (yüz) manat məbləğdə tenderdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu ala bilərlər:

Azərbaycan Milli Elmlər Akademiyasının İşlər İdarəsi
VÖEN-1700007431
Bank-DXA
Kod-210005
VÖEN- 1401555071
M/h-AZ41NABZ01360100000000003944
SWIFT-CTREAZ22
H/h-AZ28CTRE00000000000004138316
Fond-7, büdcə təsnifatı kodu- 142340.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Malgöndərənlər (podratçılar) iddiaçı statusu qazanmaq üçün aşağıdakı sənədləri rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada tender komissiyasına təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- tender təklifi (zərflər açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);
- tender təklifi qiymətinin 1 faizi həcmində təklifin bank təminatı (zərflər açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);
- malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər:
- malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitlər;
- malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat;
- malgöndərənin (podratçının) son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;
